# 18 Oktyabrla bağlı qərar doğrudur

## Tarix

***30** il öncə Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası barədə Konstitusiya Aktına imza atmış Prezident Ayaz Mütəllibov hafta.az-a müsahibəsində həmin tarixi gün ərəfəsində Azərbaycanın daxilində və xaricində baş verən proseslər, cəmi ilyarım öncə Bakıda sovet-rus imperiyasına qarşı ölüm-dirim savaşına qalxmış xalqımızın üzərinə azğınlaşmış əsgərlərini və tanklarını yeridən qaniçən Mixail Qorbaçovun respublika rəhbərliyinin bu qərarına münasibətindən və s. bəhs edib.*

***- Ayaz müəllim, Müstəqillik Haqqında Konstitusiya Aktı qəbul olunmamışdan öncə - hələ 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqda Bəyannamə qəbul olundu. O günlər yaddaşınızda necə qalıb?***

- Təəssüf ki, o mötəbər günlərin xatirəsi detallı şəkildə yadımda qalmayıb. Çox ziddiyyətli dövr idi. Moskvada məlum "QKÇP" olayları yenicə baş vermişdi. Çox mürəkkəb bir vəziyyət yaranmışdı. Avqust olaylarının gedişində məlum oldu ki, bu proseslərdən, ancaq Yeltsinin timsalında Rusiya Federasiyası bəhrələndi. Şəxsən özüm o zaman dövlət işləri ilə əlaqədar Bakıda deyildim. Baş verənləri götür-qoy etdim. Gördüm ki, Moskvanın timsalında güc mərkəzi zəifləyib. Yeltsinlə Qorbaçov arasında güclü nüfuz, demək olar ki, hakimiyyət mübarizəsi gedir. Yeltsin federasiya prezidenti kimi qüvvəyə minib. Hər şeyi öz tərəfinə çəkməyə çalışır. Sonra mən Moskvaya getdim. Moskvada müttəfiq respublika başçılarının Qorbaçovla görüşü keçirildi.

Qorbaçovla görüşlərdən sonra burada müttəfiq respublikalara, o cümlədən Azərbaycana qarşı hansısa təxribatların olacağına inandım. Elə vəziyyət yaratmışdılar ki, ittifaqın paytaxtı olan Moskva indi federasiyanın mərkəzi idi və onların düşüncəsinə görə biz də Rusiya Federasiyasının tərkib hissəsi olmalıdıq. Düşündükləri bu idi. Biz də bununla heç razılaşmırdıq. Həmçinin ortada artıq tərəflər arasında açıq hərbi qarşıdurmalara aparan Qarabağ məsələsi var idi. Ona görə də Moskvadan qayıdandan dərhal sonra ətrafımdakı etibarlı adamlara tapşırıqlar verdim. Konkret olaraq Ali Sovetin sədri rəhmətlik Elmira Qafarovaya məsləhət gördüm ki, yavaş-yavaş Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı hazırlansın. İlk addım olaraq parlamentdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamənin səsverməyə çıxarılmasını tövsiyə etdim. həmin Bəyannamə 30 avqust 1991-ci ildə səsə qoyulan № 179-XII nömrəli qərarla qəbul edildi. Bundan sonra Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı hazırlandı və nəhayət, 1991-ci il oktyabrın 18-də qəbul olundu.

***- Həmin il sentyabrın 8-də Azərbaycandakı ilk Prezident seçkilərinin keçirilməsi qərarı necə verildi? Səhv etmiriksə, sizin həmin vaxt respublika başçısı kimi tutduğunuz vəzifə elə "Prezident" adlanırdı?***

- Bəli, elədir 1991-ci ildə mənim qərarımla ölkədə Prezident seçkiləri təyin olundu. Bu, Azərbaycanın müstəqilliyinin bərpası bəyan edildikdən ( 30 avqust 1991-ci il) sonra ilk ümumxalq Prezident seçkiləri idi. Həmin seçkilər 1991-ci il sentyabrın 8-də - Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamənin qəbul edilməsindən 10 gün sonra baş tutdu. Buna qədər 1991-ci ilin mayında Azərbaycan SSR-də Prezident parlament, yəni Ali Sovet tərəfindən seçilmişdi. O zaman müxalif qüvvə olan Xalq Cəbhəsi isə həmişə deyirdi ki, guya Prezident, yəni mənim tutduğum vəzifə qeyri-legitimdir, ona görə ki, parlament onu Azərbaycanda kommunist partiyası hakimiyyətdə olanda seçib. O zaman qərara gəldim ki, növbədənkənar Prezident seçkilərinə gedək və bununla da sübut edək ki, belə seçkilər keçirmiş müttəfiq respublikaların heç birindən geridə qalmırıq.

***- Bu qərarınıza ovaxtkı müxalifət necə reaksiya verdi?***

- Buna cavab olaraq müxalifət öz etirazını seçkilərin boykot olunması ilə ifadə etdi. Bununla AXC özü üçün yenə də seçkilərdə seçiləcək Prezidentin, guya "qeyri-legitim" olacağını elan etmək "haqqı"nı saxladı. Buna rəğmən elə etdik ki, ölkədəki bütün siyasi qüvvələr və xüsusən Xalq Cəhbəsi üçün seçkilərdə iştirak etmək və öz namizədini irəli sürmək şansı yaransın. AXC boykot haqda qərar verdikdən sonra müşahidələrimizdən belə qərara gəldik ki, onların prezidentlik üçün layiqli namizədləri yoxdur.

İstisna olaraq Sosial-Demokrat partiyası əvvəlcə seçkilərə getmək haqda qərar verdi və Zərdüşt Əlizadənin namizədliyini irəli sürdü. Seçkilərə az qalmış o, öz namizədliyini geri götürdü. Beləliklə, mən seçkilərə alternativsiz getməli oldum. Nəticələr gözlənilən oldu, səslərin böyük əksəriyyətini topladım. Bu minvalla 30 il öncə dünya ictimaiyyətinə sübut etdik ki, hakimiyyətin demokratik prinsiplərlə formalaşmasının tərəfdarıyıq.

***- AXC-nin həmin seçkilərdə o vaxt Ali Sovetin sədr müavini olan Tamerlan Qarayevin namizədliyini irəli sürmək təşəbbüsü olub?***

- Xeyr. Bu, mənim yadımda deyil. Xalq Cəbhəsi əsasən Əbülfəz Elçibəyin namizədliyi üzərində dayanırdı. Seçkiləri boykot qərarı verildikdən sonra, təbii ki, onun da namizədliyi irəli sürülmədi...

***- Nəhayət, 1991-ci il oktyabrın 18-də o tarixi və məsuliyyətli qərarı necə verdiniz?***

- 1991-ci ilin 30 avqustunda olduğu kimi, mən SSRİnin hələ dağılmadığı, Qarabağda hərbi qarşıdurmanın alovlandığı mürəkkəb bir dövrdə dövlət başçısı olaraq Ali Sovetin rəhbəri mərhum Elmira Qafarovaya göstəriş verməyə məcbur oldum ki, parlamenti toplayaraq Azərbaycanın Müstəqilliyinin Bərpası Haqqında Konstitusiya Aktının səsverməyə qoyulmasını təmin etsin. Deputatların böyük əksəriyyəti buna səs verdi...

***- Köhnə kommunist fəallardan kimlərsə sizi Azərbaycanın dövlət müstəqilliyinin elan olunması qərarından çəkindirməyə çalışmadı ki? Kimsə söyləmədi ki, bu addımımız Moskvanın xoşuna gəlməz və s.***

- Xeyr. Belə bir şey yadımda deyil. Ümumiyyətlə, ölkə daxilində bu təşəbbüsümüzə qarşı ciddi narazılıq olmadı. Azərbaycanın azadlıq və müstəqilliyinə nail olmaq xalqımızın çoxdankı arzusu idi. Bunu artıq həyata keçirmək ovaxtkı rəhbərlik kimi tərəfimizdən qəti və tamamilə düşünülmüş addım oldu. Düzdür, çox az sayda ayrı-ayrı şəxslər məsələyə başqa mövqedən baxırdılar. Azərbaycanın bizim bu təşəbbüsümüzü, eləcə də müstəlliyinin bərpası haqqında sənədi dəstəkləməyənlər, yəni parlamentdə buna səs verməyənlər də oldu. Halbuki, cəmi bir neçə il sonra məhz beləleri dövlət müstəqilliyinin bərpasının siyasi və maddi bəhrələrinə sahib oldular. Yeni vəzifələrə, rütbələrə və s. yiyələndilər. Bu baxımdan, yəqin ki, müstəqilliyimizin bərpasına az sayda səs verməyənlər sonradan peşman olublar... Bir sözlə, bütövlükdə məsələ heç bir eksses, gərginlik olmadan həllini tapdı. Mən şəxsən hansısa ciddi bir etiraz hiss etmədim. Çünki dediyim kimi, nəinki siyasi dairələrdə, bütövlükdə Azərbaycan xalqında müstəqilliyin bərpa olunması istiqamətində fikir, ideya birliyi, böyük ruh yüksəkliyi vardı...

> *“ Xaricdən, o cümlədən Moskvadan bizə heç bir təzyiq, yaxud göstəriş olmadı*

***- Sizin yaxın silahdaşlarınız, rəhbər məmurlar, o cümlədən rəhmətliklər - Tofiq İsmayılov, Məhəmməd Əsədov, İsmət Qayıbov Müstəqilliyin Bərpasına necə baxırdılar?***

- Dövlət rəhbərliyindəki məmurların əksəriyyəti, o cümlədən cəmi 1 ay sonra vertolyot qəzasında şəhid olmuş əsas komanda üzvləri: Tofiq İsmayılov, Məhəmməd Əsədov, İsmət Qayıbov və digərləri də bu məsələdə birmənalı olaraq xalqın və mənim yanımda idilər...

Bu günədək xalqımız həmin mürəkkəb dövrdə bəzən öz həyatları bahasına müstəqilliyimizin bərpasına yol açmış siyasətçilərə böyük hörmətlə yanaşır. Həyat göstərdi ki, biz o dövrdə haqlı olmuşuq və doğru addım atmışıq. Əksəriyyət buna şübhə etmirdi və indi də etmir...

***- Müstəqilliyimizin Bərpası Haqqında o mötəbər sənədin qəbul olunması ərəfəsində həmin vaxt hələ tam çökməmiş SSRİ rəhbərliyi tərəfindən Azərbaycan rəhbərliyinə hansısa formada təzyiq edilmədi ki?***

- Açığını deyim, 18 Oktyabr - Dövlət Müstəqilliyimizin Bərpası Haqqında Konstitusiya Aktının Ali Sovetdə qəbul edilməsi ərəfəsində Moskva tərəfindən Azərbaycan rəhbərliyinə heç bir təzyiq-filan olmadı. SSRİ-nin ovaxtkı və sonuncu lideri Mixail Qorbaçov artıq müstəqillik yolunu tutan keçmiş müttəfiq respublikalara təzyiq göstərmək iqtidarında deyildi. Ona görə ki o, həmin dövrdə İttifaq dövlətində mövcud olan qeyri-müəyyənlik və xaos girdabında çabalayırdı... Sovet İttifaqı rəhbərliyində hər şey, bütün daxili problemlər, xarici təzyiqlər bir-birinə qarışmışdı. Digər tərəfdən, mərkəzi hakimiyyət uğrunda SSRİ Prezidenti Mixail Qorbaçov və Rusiya Prezidenti Boris Yeltsin arasında dərin ziddiyyət və qalmaqallar başlamışdı. Bütün bunlardan baş çıxarmaq üçün dəqiq və xətasız rəhbərlik etmək lazım idi. Moskvada isə belə bir rəhbər yox idi... Yerlərdə də mövcud vəziyyətdən düzgün nəticələr çıxarıb qəti qərarlar vermək gərək idi. Bütün çətinliklərə rəğmən Azərbaycan rəhbərliyi olaraq belə qərar verdik və Müstəqilliyimizin Bərpasını bəyan etdik...



**Ayaz Mütəllibov,**
Azərbaycan Respublikasının keçmiş Prezident

Bir daha təkrar edirəm: xaricdən, o cümlədən Moskvadan bizə heç bir təzyiq, yaxud göstəriş olmadı. Azərbaycanda özümüz müstəqil olmaq qərarını verdik, bunu bəyan etdik. Heç kəs bu işdə bizə manea yaratmadı. Nəticədə bütün məsuliyyəti üzərimizə götürərək xalqımızın 70 ildən çox xəyal etdiyi arzusunu həyata keçirdik və gerçəkləşdirdik... Bütün bunlarla belə, o hadisələri yaşayanlar, eyni zamanda, həmin illərin tarixini yaxşı bilənlər gözəl anlayar ki, hələ Sovet İttifaqının mövcud olduğu, eyni zamanda, Qarabağda artıq hərbi qarşıdurmaların, xalqımıza qarşı soyqırımın alovlandığı, daxildə hakimiyyət uğrunda mübarizə aparan qrupların fəallaşdığı o çox mürəkkəb və ziddiyyətli bir dövrdə Kremlin imperiya ambisiyalarının əleyhinə addım atmaq nə qədər böyük məsuliyyət və fədakarlıq tələb edirdi. Odur ki, Müstəqilliyin Bərpası haqda qərarın verilməsinə aparan yolda illərlə əziyyət çəkmiş, bəzən həyatları bahasına fədakarlıq göstərmiş siyasi lider və ayrı-ayrı siyasətçilərin zəhmətini unutmaq olmaz...

***- Ayaz müəllim, siz özünüz 30 il sonra bilavasitə baş iştirakçısı olduğunuz bu mötəbər hadisəni necə dəyərləndirirsiz?***

- 18 oktyabr 1991-ci ildə qəbul olunmuş Müstəqillik Haqqında Konstitusiya Aktına uyğun olaraq Azərbaycanın öz müstəqilliyini bərpa etməsi çoxminillik tariximiz boyu ən həlledici addımlarımızdan biri oldu. Bu addım o zaman Azərbaycanı sevənlər tərəfindən ruh yüksəkliyi ilə, sevməyənlər tərəfindən isə ciddi narahatlıqla qarşılandı...

Ölkəmiz ətrafında 1990-cı illərin əvvəlində baş verən mürəkkəb geosiyasi proseslər, o cümlədən Qarabağdakı hadisələr fonunda müstəqilliyimizin elan edilməsi müasir Azərbaycan tarixində yeni səhifə başlatdı və həmin addımın atılmasına şərait yaradanların tarixi-siyasi nöqteyinəzərdən də qətiyyətliliyini təsdiqlədi. Azərbaycanın bugünkü dövlətçiliyinin durumu da tariximizin o zamankı mürəkkəb dövründə ayıqlıq nümayiş etdirmiş xalqımızın müdrikliyini sübut edir. Ötən onilliklərin bütün keşməkeşləri bizim 30 il öncə - 18 oktyabr 1991-ci ildə doğru addım atdığımızı və Azərbaycanın gələcəyi üçün böyük və geniş bir yol açdığımızı göstərir. Heç kəsin Azərbaycanın tam mənada müstəqil dövlət olmağı haqq etməsindən şübhəsi yoxdur.Ovaxtkı dövlət başçısı kimi mənə gəldikdə, müstəqilliyin elan edilməsi haqda qərarları verərkən Azərbaycan xalqının bizim təşəbbüslərimizi dəstəkləyəcəyinə və öz həyatları bahasına ölkəmizin bərpa olunmuş müstəqilliyini elan edən və mərhələ-mərhələ möhkəmlədən siyasi liderlərin arxasında duracağına bir an da belə şübhə etmirdim Bununla fəxr etmək olar...

***- Yeri gəlmişkən, Azərbaycan dövlətinin 18 Oktyabrın bundan sonra Müstəqilliyimizin Bərpası Günü adlanması qərarına necə baxırsınız?***

- Deyim ki, məntiqli və təqdirəlayiq addımdır İnanıram ki, gələcək də bizimlədir və bir xalq-dövlət olaraq qarşımızda duran bugünkü çətinlikləri dəf edəcəyimizə şübhə yoxdur. Xüsusən torpaqlarımızın azadlığı uğrunda II Qarabağ müharibəsini təşkil etmiş və onu qələbə ilə nəticələndirmiş siyasi rəhbərliyin xidmətlərini vurğulamaq istərdim. Bundan sonra da düşmən güclər qarşısında belə qətiyyətli və iradəli mövqe tutulması arzusuyla xalqımızı və dövlət rəhbərliyini öncədən Dövlət Müstəqilliyimizin Bərpasının 30 illiyi münasibətilə təbrik edir, həyatımızın bütün sahələrindəki, xüsusən Qarabağda, Zəngəzurda - işğaldan azad edilmiş quruculuq və məskunlaşma işlərində yeniyeni uğurlar diləyir, müstəqil Azərbaycan Respublikasının hər bir vətəndaşına daim rifah və şadlıq dolu xoşbəxt həyat arzulayıram...

*✍ Sultan Laçın*